# Yüksək etimadla dövlətçiliyə sədaqət missiyası

*Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin milli maraqlarının və xarici siyasət prioritetlərinin həyata keçirilməsində diplomatik xidmət orqanlarının rolu böyükdür. Diplomatlar dövlətin beynəlxalq aləmdə siması, mövqeyi və iradəsini təcəssüm etdirən mürəkkəb institusional strukturunun nümayəndələridir. Ölkəmizdə diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi dövlətin bu strateji əhəmiyyətli sahəyə, diplomatların gərgin və məsuliyyətli fəaliyyətinə verdiyi yüksək dəyərin göstəricisidir. Prezident İlham Əliyevin 24 avqust 2007-ci il tarixli Sərəncamı ilə hər il iyulun 9-u ölkəmizdə Diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir.*

Bu tarixin seçilməsi dərin məna daşıyır və müasir Azərbaycan diplomatiyasının köklərinin Azərbaycan Xalq Cümhuriyyəti dövrünə gedib çıxdığını təsdiq edir. Belə ki, 1919-cu il iyulun 9-da Cümhuriyyət hökuməti tərəfindən Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın təsdiq edilməsi ilk milli diplomatik idarənin fəaliyyətinin əsaslarını formalaşdıran mühüm addım olmuşdur. Bu hadisə Azərbaycanın xarici siyasət aparatı üçün peşəkar diplomatik kadrların formalaşdırılması, işin təşkili və beynəlxalq yazışmaların sistemləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Cümhuriyyət dövrü diplomatiyası Azərbaycanın dövlətçilik tarixində silinməz iz qoymuşdur. Belə ki, həmin dövrün diplomatları böyük dövlətlərin maraqlarının toqquşduğu məkanda yeni yaranmış respublikanın müstəqilliyini qorumaq, onun beynəlxalq aləmdə tanınmasına nail olmaq, xarici dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmaq kimi çətin vəzifələri yerinə yetirmişlər. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına göndərilən nümayəndə heyətinin fəaliyyəti, bir sıra Avropa dövlətlərində diplomatik nümayəndəliklərin təsis edilməsi və Antanta Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması Cümhuriyyət diplomatiyasının ən böyük uğurudur. Bu tarixi irs müstəqilliyini bərpa etmiş müasir Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının formalaşması, milli diplomatiya məktəbinin yaranması üçün fundamental əsas olmuşdur.

Diplomatik xidmət dövlətin xarici siyasətində əsas vasitədir. Xarici İşlər Nazirliyinin, səfirlik və nümayəndəliklərin əməkdaşları milli maraqların qorunması, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunması və xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi kimi məsul və şərəfli missiya həyata keçirirlər. Diplomatik fəaliyyətin funksional çərçivəsi 1961-ci il "Diplomatik əlaqələr haqqında" Vyana Konvensiyasında kodifikasiya edilmişdir. Bu funksiyaların əsasında təmsilçilik durur. Belə ki, diplomat onu qəbul edən dövlətdə öz ölkəsinin təmsilçisidir, dövlət başçısının və hökumətin iradəsini ifadə edir. Bu funksiya dövlətin suverenliyi prinsipinin praktiki təzahürüdür və dövlətlərarası münasibətləri təmin edir.

Diplomatlar ikitərəfli və çoxtərəfli formatlarda, beynəlxalq konfranslarda və təşkilatlarda dövlətlərinin mövqeyini müdafiə edərək, müqavilə və sazişlərin hazırlanmasında iştirak edir, mürəkkəb siyasi, iqtisadi və hüquqi məsələlərin həlli üçün danışıqlar aparırlar. Bu mənada ikinci mühüm funksiya danışıqların aparılmasıdır. Beynəlxalq hüquq çərçivəsində dövlətin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizlik maraqlarının, həm də konsulluq fəaliyyəti vasitəsilə xarici ölkələrdə olan fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçüncü funksiyaya daxildir. Dördüncü funksiyaya əsasən diplomat onu qəbul edən dövlətdə hadisə və proseslər haqqında bütün qanuni vasitələrlə məlumat toplamalı və məsələləri təhlil edərək öz hökumətinə ötürməlidir. Bu fəaliyyət xarici siyasətə dair qərarların qəbulu üçün zəruri informasiya bazasını təşkil edir və dövlətə beynəlxalq vəziyyəti düzgün qiymətləndirmək, potensial riskləri və imkanları proqnozlaşdırmaq imkanı verir. Həmçinin diplomat göndərən dövlətlə qəbul edən dövlət arasında dostluq münasibətlərinin, iqtisadi, mədəni və elmi əlaqələrin inkişafını təşviq edir. Belə ki, müasir diplomatiya təkcə siyasi məsələlərlə məhdudlaşmır, həm də ticari əlaqələrin genişləndirilməsini, milli mədəniyyətin və elmi nailiyyətlərin təbliğini, turizm potensialının tanıdılmasını və xalqlar arasında qarşılıqlı anlaşmanın dərinləşdirilməsini hədəfləyən geniş spektrli fəaliyyəti ehtiva edir. Bu funksiyaların kompleks şəkildə və yüksək peşəkarlıqla yerinə yetirilməsi dövlətin uğurlu xarici siyasətinin fundamental şərtidir.

Müstəqilliyin bərpasından sonra Azərbaycan diplomatiyası çoxşaxəli vəzifələrin öhdəsindən layiqincə gəlmiş, milli maraqların qorunması və beynəlxalq mövqeyin möhkəmləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Azərbaycanın xarici siyasətinin təməlində Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş praqmatik, balanslaşdırılmış və milli maraqlara əsaslanan kurs dayanır. Uzun illər ərzində bu kursun əsas prioriteti dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi olmuşdur. Azərbaycan haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmaq, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan həll yoluna nail olmaq üçün ardıcıl və məqsədyönlü siyasət yürütmüşdür. BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı sənədlər Azərbaycan diplomatiyasının fəaliyyətinin hüquqi bazasını təşkil etmişdir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına unvanladığı təbrikdə demişdir: "Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, işğal olunmuş ərazilərimizin azad edilməsi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi xarici siyasətimizin gündəliyində duran ən vacib məsələdir. Ardıcıl diplomatik səylərimiz nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizin ərazi bütövlüyü və suverenliyini, münaqişənin məhz bu prinsiplər əsasında həllini qətiyyətlə dəstəkləyir".

44 günlük Vətən müharibəsi ilə ərazi bütövlüyünün və tarixi ədalətin bərpası Azərbaycan diplomatiyası qarşısında postmünaqişə dövrünün vəzifələrini müəyyən etmişdir. Bu vəzifələrə sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiya və demarkasiyası, regional kommunikasiyaların açılması, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuğa beynəlxalq dəstəyin cəlb edilməsi və regionda yeni təhlükəsizlik arxitekturasının formalaşdırılması daxildir. Azərbaycan diplomatiyasının digər mühüm prioriteti enerji diplomatiyasıdır. "Əsrin müqaviləsi" ilə başlayan və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft-qaz kəmərləri ilə davam edən enerji strategiyası Cənub Qaz Dəhlizinin reallaşması ilə zirvə nöqtəsinə çatmışdır. Bu layihələr Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycanın geosiyasi əhəmiyyətini əsaslı şəkildə artırmışdır.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq da xarici siyasətin mühüm tərkib hissəsidir. Azərbaycan BMT-nin fəal üzvü kimi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir. Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik etmiş, bu platformadan istifadə edərək qlobal problemlərin həllində, xüsusilə pandemiya ilə mübarizədə və "peyvənd milliətçiliyinə" qarşı beynəlxalq səylərin səfərbər olunmasında liderlik nümayiş etdirmişdir. İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq Azərbaycanın İslam və Türk dünyası ilə həmrəyliyinin və bu coğrafiyalarda artan rolunun təsdiqidir. Nəqliyyat-logistika sahəsində Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında fəal iştirak, Bakı-Tbilisi-Qars dəmir yolu kimi strateji layihələrin reallaşdırılması Azərbaycanı Avrasiyanın mühüm nəqliyyat qovşağına çevirmişdir. Bütün nailiyyətlər Azərbaycan diplomatiyasının müasir çağırışlara adekvat cavab vermək, milli maraqları effektiv şəkildə qorumaq və ölkənin beynəlxalq sistemdəki mövqeyini davamlı olaraq gücləndirmək əzmini nümayiş etdirir.

Diplomatik fəaliyyət beynəlxalq və milli hüquqi baza ilə tənzimlənir. Bu hüquqi çərçivə olmadan diplomatik münasibətlərin sivil və nizamlı şəkildə qurulması mümkün deyil. Beynəlxalq səviyyədə diplomatik hüququn təməl daşları BMT-nin himayəsi altında hazırlanmış iki fundamental sənəd - 1961-ci il "Diplomatik əlaqələr haqqında" və 1963-cü il "Konsul əlaqələri haqqında" Vyana Konvensiyalarıdır. Bu konvensiyalarda əsrlər boyu formalaşmış diplomatik hüquq normaları kodifikasiya edilərək onlara universal hüquqi qüvvə verilmişdir. "Diplomatik əlaqələr haqqında" Vyana Konvensiyası diplomatik nümayəndəliklərin statusunu, funksiyalarını, onların və əməkdaşlarının imtiyazlarını müəyyən edir. Konvensiyanın əsas müddəaları arasında nümayəndəlik binalarının, diplomatik poçtun və yazışmaların, səfirlərin toxunulmazlığı kimi prinsiplər xüsusi yer tutur. Azərbaycan Respublikası mühüm beynəlxalq proseslərə qoşularaq, diplomatik təcrübəsini ümumqəbul edilmiş hüquq normaları üzərində qurmuşdur. Bu baxımdan Azərbaycan Respublikasının "Diplomatik xidmət haqqında" Qanunu milli səviyyədə diplomatik fəaliyyəti tənzimləyən əsas normativ-hüquqi aktdır. 2001-ci ildə qəbul edilmiş qanun Azərbaycan Respublikasında diplomatik xidmətin təşkilinin və fəaliyyətinin hüquqi əsaslarını, prinsiplərini, diplomatik xidmət orqanlarının sistemini, diplomatik xidmət əməkdaşlarının hüquq və vəzifələrini, onlara verilən diplomatik rütbələri və sosial təminat məsələlərini əhatəli şəkildə müəyyən edir. Qanuna əsasən diplomatik xidmət dövlət qulluğunun tərkib hissəsidir və əsas prinsipləri qanunçuluq, dövlətin və cəmiyyətin mənafeyi qarşısında məsuliyyət, peşəkarlıq, aşkarlıq və siyasi bitərəflikdir. Qanun Azərbaycan Respublikasının diplomatik rütbələrinin iyerarxiyasını da təsbit edir: attaşe, müşavir, fövqəladə və səlahiyyətli elçi (ikinci və birinci dərəcəli) və fövqəladə və səlahiyyətli səfir. Bu rütbələr diplomatın peşəkarlıq səviyyəsi, xidməti fəaliyyəti və diplomatik xidmətdəki qulluq müddəti nəzərə alınmaqla verilir. Həmçinin diplomatların vəzifələri də dəqiq müəyyənləşdirilir ki, bunlara Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etmək, dövlət maraqlarını üstün tutmaq və dövlət sirrini qorumaq kimi mühüm öhdəliklər daxildir. Bu il fevralın 17-də Prezidenti İlham Əliyev tərəfindən "Diplomatik xidmət haqqında" Qanun təsdiqlənərək bir sıra qanunvericilik aktları, o cümlədən Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Vergi Məcəlləsi, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında müvafiq dəyişikliklər edilmişdir.

Yeni qanun diplomatik xidmət, xidmət orqanları və onların əməkdaşlarının fəaliyyətinin təşkili, hüquq və vəzifələri, təminat və sosial müdafiə məsələlərinin daha ətraflı şəkildə təfsiri ilə mövcud qanunvericilikdən fərqlənir. Burada diplomatik xidmət orqanların fəaliyyət istiqamətləri, funksiyaları, həmçinin əməkdaşlarının vəzifələri, hüquqları, onlara şamil olunan məhdudiyyətlər, onların intizam məsuliyyəti, əməyin ödənilməsi kimi məsələlərin tənzimlənmə qaydaları ətraflı şəkildə öz əksini tapıb.

Ölkəmizdə Diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi və hər il qeyd olunması ilk növbədə, dövlətin xarici siyasətini həyata keçirən peşəkar korpusa verdiyi yüksək dəyərin təzahürüdür. Diplomatik fəaliyyət əksər vaxtlarda təmtəraqlı qəbullar və rəsmi görüşlərlə xarakterizə olunsa da, gərgin intellektual zəhmət, yüksək məsuliyyət hissi və vətəndən uzaqda uzun illər davam edən fəaliyyətlə səciyyələnir. Qeyd edək ki, hazırda Azərbaycan 183 xarici ölkə ilə diplomatik əlaqələr qurmuş, 59 ölkədə səfirlik açmış, 9 şəhərdə baş konsulluğu, 17 ölkədə fəxri konsulluğu, 19 beynəlxalq təşkilat yanında nümayəndəliyi mövcuddur. Eyni zamanda, respublikamızda 66 dövlətin səfirliyi və 3 ölkənin 4 baş konsulluğu, 13 ölkənin fəxri konsulluğu, 21 beynəlxalq təşkilatın nümayəndəliyi fəaliyyət göstərir. Bu gün 1000-ə yaxın peşəkar diplomat ölkə daxilində və xarici dövlətlərdə, beynəlxalq və regional təşkilatlarda Azərbaycanı təmsil edərək müstəqil dövlətimizin milli maraqlarını qoruyur, xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi yolunda dövlətçiliyimizə xidmət edir. Müxtəlif ölkələrdə xidmət edən, fərqli rütbələr və vəzifələr daşıyan diplomatlarımızı vahid mövqe birləşdirir: dövlətçiliyə sədaqətlə xidmət missiyası.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**